

# Məhəbbət dastanı

***Hüseyn Cavidin yaratdığı "Şeyx Sənan" faciəsi Azərbaycan ədəbiyyatının incilərindəndir. Bu əsərin mövzusu bir xalq əfsanəsindən götürülmüşdür. Cavidi hələ gənc yaşlarından bu mövzu maraqlandırmış, Tiflisdə yaşayarkən Şeyx Sənan dağını ziyarət etmiş, hətta onun türbəsi önündə lirik şer yazmışdır. Bu barədə Rza Təhmasib yazırdı: "Cavid Şeyx Sənan"ın ayrı-ayrı parçalarını hələ 1912-1913-cü illərdə mənə oxumuşdu. Yadımdadır, Cavid Tiflisdə "Şeytanbazar"da bir mənzil tutmuşdu. Oradan Şeyx Sənan dağı aydın görünürdü. Cavid, Əziz Şərif və mən bir neçə dəfə həmin dağa gəzməyə getmişdik.***

Cavid burada Şeyx Sənana istinad edilən qəbir yanında xeyli dayanar, diqqətlə ona baxardı. Sonralar başa düşdüm ki, o, ruhən və fikrən bu yerlərə yaxın olmağa bir ehtiyac duyurmuş"...("Ədəbiyyat və incəsənət" 2 mart 1963.) Cavidin Şeyx Sənan türbəsi önündə yazdığı:

***Oyan ey piri xoşdil! Qalx, ayıl bir xabi rahətdən!***
***Qiyamətdir, qiyamət!..Qalx, oyan, zövq al bu fürsətdən.***
***Ziyarətgahını gülbusələr təzyin edir hər an.***
***Sən əhli eşq üçün bir Kəbə yapdırdın məhəbbətdən.***
***"Nədir mənası" eşqin?! Söyləyənlər nerdə? Bir gülsin.***
***Görüb qüdsiyyəti Sənanı lal olsun xəcalətdən...***

(Hüseyn Cavid. Seçilmiş əsərləri. Yazıçı, 1982 s.77.)

Şerdə Cavidin Sənana vurğunluğu və Şeyx Sənan əfsanəsindən təsirləndiyi açıq-aşkar görünür. H.Zeynallının sözlərilə desək, "sözsüz ki, şairin gözündə qayət möhtəşəm görünən bu çətin tarixini araşdırmağa, onun hardan gəldiyini öyrənməyə qoşulacaqdır." (Cavidi xatırlarkən, Bakı, Gənclik, 1982 s.71.)

Bu həqiqətən də belə olur. Q.Məmmədli "Cavid ömrü boyu" əsərində yazır ki, "Tiflisdə məşhur olan bu əfsanəvi Şeyx Sənan dağı Cavidi elə əfsunlayır ki, o, bu barədə məlumatlar toplamaq məqsədi ilə A.Şaiqə məktub yazaraq ondan "Tarixi islamiyyət" kitabının ikinci cildini istəyir ki, bu cilddə də ərəblərin Şimali İrana və Qafqaza yürüşlərindən bəhs olunur. Bu da "Şeyx Sənan" mövzusu ilə əlaqədardır.

Deməli, Cavid hələ 1910-cu ildə "Şeyx Sənan"ı yazmaq fikrində imiş. (Q.Məmmədli, Cavid ömrü boyu, Bakı, Yazıçı, 1982.)

Deyilənlərdən belə qənaətə gəlmək olur ki, həqiqətən də, Cavid "Şeyx Sənan"ı 1910-cu ildə yazmağa başlayır, 1914-cü ildə isə yazıb tamamlayır.

Bu mövzuya ilk dəfə müraciət edən Cavid deyil. Caviddən əvvəl bu mövzuya müraciət edən Şeyx Fəridəddin Əttar olmuşdur. Bundan sonra Ü.Hacıbəyov da bu mövzuya müraciət etmiş, 1908-ci ildə "Şeyx Sənan" operasını, M.Ş.Hacınski isə bu mövzuda rus dilində "Şeyx Sənan" adlı risab yazmışdır.

Şeyx Əttarla Cavidin "Şeyx Sənan"ının mövzusu eyni olsa da, Cavidin "Şeyx Sənan"ı daha mükəmməl və möhtəşəmdir və bu əsərlər arasında fərq çoxdur.

"Şeyx Sənan" əfsanəvi şəxsiyyət olan Sənanın məhəbbət macərasına həsr olunmuşdur.

Sənan müqəddəs şəxsdir, məslək adamıdır. O, din ehkamını yüksək tutan və insanları dinə çağıran bir mürşiddir, təriqət başçısıdır. Hər zaman müridlərin, möminlərin üz tutduğu müqəddəs bir şəxsdir.

Gürcü qızı Xumara vurulandan sonra Şeyxin bütün həyatı dəyişir, sanki çay öz məcrasından çıxır, onun dini görüşlərində, hərəkətlərində, dini etiqad və düşüncələrində dəyişiklik yaranır. Əsərdəki hadisələr Şeyx Sənanın üzərində qurulmuşdur. Onun çox mürəkkəb bir həyat yolu var.

O, Turanda doğulur, bir zaman İranda yaşayır, sonra "kəsbi rfan" üçün Ərəbistana gedir, lakin ən son yeri Gürcüstan olur.

Onun gəzdiyi yerləri sadaladıqca, Ərəbistanı çıxsaq, Cavidin olduğu yerləri bizə xatırladır. Cavid də qədim türk yurdu Naxçıvanda doğulur, müalicə üçün bir müddət İranda yaşayır, sonra isə təhsilini artırmaq üçün Türkiyəyə gedir.

Qayıtdıqdan sonra bir müddət Naxçıvanda, Gəncədə və Tiflisdə dərs deyir. Cavidlə Sənanın taleyindəki oxşarlıq təkcə "məkan oxşarlığı" deyil, fikir və düşüncə oxşarlığı da var. Sənan öz düşüncə və görüşlərində "varlığı hərəkətdə" qəbul edir və bu düşüncə tərzi ilə də materialistlərə yaxınlaşır. Onun bu düşüncələrindən xəbərdar olan müridlər bunu Şeyx Kəbirə xəbər verirlər:

***Möhtərəm Şeyx! Altı gün əvvəl,***
***Vardı Sənanla bir mübahisəmiz.***
***Bağırıb söylüyordu pərvasız,***
***"Olsa merac, olur da ruhani,***
***Həp yalandır, əruci cismani.***
***Bir bəşərdir, diyordu peyğəmbər,***
***Heç görülmüşmü, çıxsın ərşə bəşər?"***

Şeyx Kəbir müridlərindən dini görüşlərinə görə fərqlənən bir şəxsdir. O da Allahı göydə deyil, təbiətdə axtarır və Sənanı da bu ruhda tərbiyə etmişdir. Buna görə də müridlərin söylədikləri onu heyrətləndirmir. O, Sənanın şübhələrinə, "Şübhədir bir həqiqətin anası, Şübhədir əhli hikmətin babası" deyərək Sənana haqq qazandırır: "Allahı təbiətdən kənarda axtarmaq lazım deyil, Allahı görmək üçün təmiz və pak ürək sahibi olmalısan". Bu isə "vəhdəti-vücud" nəzəriyyəsinin əsas kökünü səciyyələndirir. Y. Qarayev "Realizm, sənət və həqiqət" əsərində yazır: "Məhəbbət mövzusu bizdə intim məişət, ailə əxlaq poeziyası yox, müdriklik, əql, ictimai-etiraz, mənəvi-əxlaqi üsyan poeziyası üçün münbit bir zəmin olmuşdur. Şərqli filosof şairi cəmiyyət tarixinin, obyektiv inkişaf qanunlarından daha əvvəl, ayrılıqda, ömrün mənası, "mən"in dünyası, ruhun, mənəvi varlığın fəlsəfəsi düşündürmüşdür, tarixin yox, əxlaqın ziddiyyətləri narahat etmişdir. Göylərə obyektiv ictimai və təbii təmizləmə, daxili əxlaqi təkamül problemi üstələmişdir.



Burada özünüdərk qanunlarla münasibət konfliktini mənəvi və iç dünyanı dərk vasitəsi ilə həyata keçmişdir. "Məndə sığar iki cahan, Mən bu cahana sığmazam" - bu sözlər "mən"lə cahan arasında Şərq münasibətlərini ifadə edir." (Y. Qarayev "Realizm, sənət və həqiqət", Bakı, 1980.)

Tərəddüd içərisində olan Sənanın tərəddüdləri, nəhayət, əsərin birinci pərdəsində sona yetir, belə ki, Şeyxin qəlbində artıq ona yasaq olunmuş bir şeyə, "torpaqdan və varlıqdan gələn" təbii hisslər baş qaldırır.

Bu böyük eşq, dünyəvi ehtirasdır ki, Şeyxə röyada ikən sirayət edir, bir tərsa sənəm Şeyxə "Şeyx, gəl, gəl! Sevimli Sənan, gəl!" - deyərək onu başqa bir aləmə çağırır.

Sənan bu röyadan eşqlə, böyük, uca bir eşqlə, Xumarın eşqi ilə oyanır və öz eşqinə, Xumara çatmaq üçün dinə zidd işlər görür; Quranı yandırır, şərab içir, donuz otarır. Bütün bunlara səbəb isə Xumara qovuşmaq eşqidir.

Cavidin bu mövzuya müraciət etməsini təsadüf saymayan Ə.Sultanlı yazır:

"Bu dövrdə bizim klassik şairlərimiz öz şerlərində "məscidini-meyxanəni" sualını ortaya atmışlar və məsciddən meyxanəyə getməyi məsləhət görmüşdülər." "Məscidini-meyxanəni" məsələsi şerimizdə dərin fəlsəfi məzmun daşıdığı üçün şairlərin bir qismi bunu mistik, ikinci qismi materializm nöqteyi-nəzərindən mənalandırmağa çalışmışdır. H.Cavid isə bu ziddiyyəti başqa məfhumlarla, dinimi və ya eşqimi şəklində verərək konflikt içində konflikt yaratmışdır.

"Şeyx Sənan" məhəbbət mövzusunda yazılmış ən gözəl məhəbbət dastanıdır. Əsərdəki Xumar gözəllik, sevgi və qüdsiyyət rəmzi olmaqla yanaşı, həm də mənəvi eşqin və ülviyyətin təzahürüdür. Sənan böyük eşqi məhz onun simasında tapır. Əvvəllər öyrəndikləri bu eşqin qarşısında puç və sönük görünür. O apardığı mütləq eşqi onda tapır. Düzdür, bu eşqə çatmaq üçün ağır və məşəqqətli yollardan keçsə də, Xumara çata bilmir. Sənan eşqi yolunda hər şeydən keçir, Xumarla ölümü seçir. Xumar da Sənana çatmaq üçün hər şeydən, dinindən belə üz çevirir, lakin onların qovuşması mümkün deyil, çünki onlar arasında dini ayrı-seçkilik var. Bu məhəbbəti düzgün qəbul etməyənlər onları əfv etməyə çalışır, lakin Sənanla Xumarın məhəbbəti hər şeydən yüksəkdə durur. Ölümü seçən Sənan Xumara,

***Şeyxi məhv oldu sanmayın zinhar!***
***İştə qarşındayam, sevimli Xumar!***
***Məni öldürsələr də, mən yaşarım.***
***Tərk edib xəlqi xilqətə qoşarım.***
***Əbədiyyət mənim məzarımdır,***
***Çünki sultanı eşq yarımdır.***
***Eşq üçün can nişar edən kəslər,***
***Əbədi bir həyat içində gülər.***

Hər iki aşiq birlikdə ölümü seçir, bu da məhəbbətin hər şeydən, hətta dindən belə yüksəkdə durduğunu göstərir.

Akademik M.Cəfər əsərin finalında Xumarın Sənanın dalınca getməsini belə qiymətləndirir: "Xumarın hər şeyi atıb Sənanın dalınca getməsi, Sənanın ona ağuş açması, bərabər ölümə getməsi faciənin mərkəzində duran əsas ideyanı - bütün dinlər əfsanədir və ancaq insanları bir-birindən ayırmağa xidmət edir, ideyasının bədii həlli baxımından çox gözəl düşünülmüşdür. Sənan müsəlmançılıqdan, Xumar isə xristianlıqdan çıxıb hər şeyə üstün gələn qadir məhəbbətin ağuşuna atılıb insan olurlar. (M.Cəfər, Hüseyn Cavid, Bakı, Azərnəşr 1960, s.96.)"

Cavid Sənanın xarakterində akademik M.Arifin də dediyi kimi, "bir tərəfdən kapitalizm cəmiyyətində şəxsiyyətin iztirablarını, digər tərəfdən isə mücərrəd şəkildə olsa da, dini mövhumata qalib gələn məhəbbətin gücünü təsvir edir." (M.Arif, Azərbaycan ədəbiyyatının yüksəliş dövrü, Bakı, 1957, s.22)

Sənanın dinə üsyanı əsərdə çox böyük bədiiliklə verilmişdir. "Şeyx Sənan" faciəsində din mifik mülahizəyə rəğmən ilahi səltənətdir" - deyən Ə.İsmayılova görə, "Sənanın mənəviyyatında millilik, eyni zamanda şərqilik qüvvətli olduğundan onun mübarizəsində də tipoloji keyfiyyət qabarıqdır. Sənanda da Allaha qarşı üsyan var. Allahın zülm və sitəminə dözməyən Sənan da İblis kimi üsyan edir:

***Ya rəbb...***
***Gəliyor hər bu hiylələr səndən.***
***Məni bilməm neçin yaratdın sən?***

deyərək dünyanı yaradan Allaha qarşı çıxır. O, əsər boyu inkişafda göstərilir. Həqiqət axtaran Sənan axtardığını Xumarın eşqində tapır, dini atıb məhəbbət dininə tapınır. "Şeyx Sənan" da Cavid şəxsiyyətin dinə, dini təriqətlərə üsyanını göstərməklə yanaşı, onun alicənablığını da yüksək bədiiliklə təsvir etməyə müvəffəq olmuşdur.

Bir sözlə, əsər boyu Sənan kimi "ehkamdan dialektikaya, müəyyən hazır ideallardan axtarıcı və sərt təfəkkürə, donuq, dolğun və inkişaf yolu keçən, ruhani məhəbbəti görən, duyan və təsdiq edən mütəfəkkir aşiqin həyat idealı real həqiqətə büsbütün uyğundur." (Ə.Ağayev, Sənət məsələləri, Bakı. 1962, s.143.) Cavid "Şeyx Sənan"ı yaratmaqla, yeni bir dini təriqəti yaratmışdır. "Şeyx Sənan" bir sevgi müntəxabatıdır desək, səhv etmərik, çünki "Şeyx Sənan" da Hüseyn Cavid yaradıcılığının "Leyli və Məcnun"udur. (Z.Əkbərov.) Sənan məhəbbətin gücü ilə kamillik zirvəsinə yüksəlir, bu elə bir yüksəklikdir ki, oradan enmək olmaz. Sənan ölür, lakin fəth etdiyi yüksəklikdən enmir, ölümü ilə ölümsüzlük qazanır.

**Lütviyyə ƏSGƏRZADƏ,**
***Naxçıvan şəhəri Heydər Əliyev muzeyinin direktoru***